

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 23 aprel 2022-ci il №31 (2642) https://mod.gov.az Qiyməti 30 qəpik

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Bu gün Azərbaycan Ordusu istənilən vəzifəni icra edə bilər

*Aprelin 22-də Şuşa şəhərində Dünya Azərbaycanlılarının V Qurultayı - Zəfər Qurultayı işə başlayıb.*

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qurultayda geniş nitq söyləyib.

### Prezident İlham Əliyevin nitqi

- Hörmətli qurultay iştirakçıları, sizi səmimiyyətlə salamlayıram, Şuşaya, Qarabağa xoş gəlmisiniz!

Xahiş edirəm ki, ilk növbədə, Vətən uğrunda canından keçmiş, qəhrəmancasına həlak olmuş əziz şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad edək.

Allah rəhmət eləsin!

Biz şəhidlərimizin qanını döyüş meydanında aldıq, qisasımızı düşməndən döyüş meydanında aldıq. Onların qanı yerdə qalmadı, bu, onların yaxınları üçün, qohumları üçün, bütün Azərbaycan xalqı üçün təsəlli verir.



Biz bu gün azad Qarabağda, azad Şuşada Dünya Azərbaycanlılarının Qurultayını keçiririk. Bu qurultayın adı Zəfər qurultayıdır və bu, təbiidir. Çünki tarixi Zəfərdən sonra ilk dəfədir ki, dünya azərbaycanlıları toplaşır, qurultay keçirir və ümumiyyətlə, Zəfər adı xalqımıza çox yaraşır. Siz buraya Zəfər yolu ilə gəlmisiniz, qurultayın adı Zəfər qurultayıdır. Hazırda ölkəmizin müxtəlif yerlərində, ilk növbədə, azad edilmiş ərazilərdə Zəfər muzeyləri inşa edilir.

Bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, bundan sonra bizim dövlətimiz qalib dövlət kimi yaşayacaq. Bu, böyük xoşbəxtlikdir - hamımız üçün, Azərbaycanda yaşayanlar, Azərbaycan vətəndaşları üçün, xaricdə yaşayan azərbaycanlılar üçün. Bu tarixi missiyanı həyata keçirən bizim qəhrəman övladlarımız tarix qarşısında, xalq qarşısında, Vətən qarşısında misilsiz xidmətlər göstərmişlər. Müstəqillik dövründə yetişən gənclər, vətənpərvərlik ruhunda yetişən gənclər bu tarixi hadisəni, tarixi müjdəni Azərbaycan xalqına bəxş etmişlər.

Buraya gələrkən 2001-ci ildə keçirilmiş ilk qurultayı xatırlayırdım. Bildiyiniz kimi, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə ilk qurultay 2001-ci ildə keçirilmişdir. Ulu Öndər dərin məzmunlu çıxışında, eyni zamanda, təbii ki, Qarabağ problemi ilə bağlı öz fikirlərini bildirmişdir və demişdir ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, işğal altında olan torpaqlar işğaldan azad ediləcək və Azərbaycan xalqı öz dədə-baba torpaqlarına qayıdacaqdır. Biz - Ulu Öndərin davamçıları bu sözləri gerçəyə çevirdik və V qurultaya hazırlıq işləri başlayarkən mənə məruzə edildi və mən dedim ki, bu qurultay mütləq Şuşada keçirilməlidir. Əminəm ki, qurultay iştirakçıları da buna çox müsbət yanaşıblar və böyük həvəslə Şuşaya, qədim Şuşaya, bizim mədəniyyətimizin paytaxtı olan Şuşaya gəlmişlər. Şuşa da öz doğmalarını bax, belə günəşli hava ilə qarşılayır və bu, bir daha onu göstərir ki, bura bizim tarixi torpağımızdır. Hətta təbiət, günəş də bizimlə həmrəydir.

Qarabağ münaqişəsinin həll edilməsi Prezident kimi mənim üçün başlıca vəzifə idi. Vəzifəyə seçildiyim ilk gündən bu günə qədər bu məsələnin həlli və postmünaqişə dövrünün Azərbaycanın xeyrinə inkişaf etməsi mənim üçün başlıca vəzifədir və bütün güclər səfərbər edilmişdir. Biz hamımız - həm Azərbaycanda yaşayan Azərbaycan vətəndaşları, dünya azərbaycanlıları bir nöqtəyə vururduq, bir hədəfə çatmaq üçün çalışırdıq. Mən deyirdim ki, biz hər birimiz hər gün bu müqəddəs günü yaxınlaşdırmalıyıq, öz əməyimizlə, işimizlə, hərə öz yerində və torpaqlarımızın işğaldan azad olunmasından daha vacib və ali vəzifə yox idi. Məhz buna görə ordu quruculuğu sürətlə aparılmışdır, buna görə Azərbaycan müasir orduya malik olmuşdur, buna görə gənc nəsil vətənpərvərlik, düşmənə nifrət, Vətənə sədaqət ruhunda tərbiyə olunurdu, buna görə iqtisadi islahatlar aparılmışdır. Bizim bütün işlərimizin, apardığımız siyasətin, atdığımız addımların fövqündə bu müqəddəs günü yaxınlaşdırmaq və bu günü görmək amalı dururdu. Biz buna öz gücümüzlə nail olduq. Azərbaycan xalqı 30 il davam edən mənasız danışıqlar əvəzinə öz gücünü ortaya qoydu, ədaləti bərpa etdi, beynəlxalq hüququ bərpa etdi və bütün dünyaya sübut etdi ki, biz böyük xalqıq və heç vaxt bu xalq, Azərbaycan xalqı işğalla barışmaq fikrində deyildi.

Mən dəfələrlə, o cümlədən birinci Qurultaydan sonra keçirilmiş Dünya Azərbaycanlılarının qurultaylarında çıxış edərkən deyirdim ki, biz heç vaxt bu işğalla barışmayacağıq, nəyin bahasına olursa-olsun, öz dədə-baba torpaqlarımızı işğaldan azad edəcəyik. Ancaq həqiqətən mən istəyirdim ki, bu məsələ sülh yolu ilə həll olunsun, müharibə yolu ilə yox. Çünki hesab edirdim ki, sülh yolu ilə bu məsələnin həlli mümkündür. Beynəlxalq hüququn norma və prinsipləri ölkəmizin mövqeyini müdafiə edirdi. Dünyanın aparıcı beynəlxalq təşkilatları Azərbaycanın mövqeyini dəstəkləyən və haqq-ədalətə söykənən qərar və qətnamələr qəbul etmişlər. Ermənistanın işğalçılıq siyasəti dünya miqyasında artıq heç kimə sirr deyildi. Eyni zamanda, Azərbaycanla Ermənistan arasındakı qüvvələr nisbəti bizim xeyrimizə böyük dərəcədə dəyişdiriləndən sonra hesab edirdim ki, Ermənistan rəhbərliyi də nəhayət dərk edəcək ki, bizimlə rəqabət aparmaq üçün onların heç bir resursu yoxdur - nə siyasi resursu, nə iqtisadi, nə də insan resursu yoxdur. Hesab edirdim ki, Ermənistanda nəhayət anlayacaqlar ki, XXI əsrdə qonşu dövlətin torpağının böyük hissəsini işğal altında saxlamaq mümkün deyil. Ancaq əfsuslar olsun ki, həm Ermənistan rəhbərliyi, eyni zamanda, beynəlxalq ictimaiyyət, beynəlxalq təşkilatlar fərqli fikirdə idi və uzun sürən - 30 ilə yaxın davam edən danışıqlar, sadəcə olaraq, bu işğalı əbədiləşdirmək, Ermənistanın işğalçılıq siyasətini pərdələmək və bizi bu acı vəziyyətlə barışdırmaq məqsədi güdürdü. Əlbəttə, biz heç vaxt buna razı ola bilməzdik və Vətən müharibəsindəki göstərdiyimiz iradə, qətiyyət, döyüş meydanındakı qəhrəmanlıq bunu bir daha göstərdi. Biz təkcə Ermənistanla müharibə aparmamışıq. Biz təkcə dünya erməniliyi ilə müharibə aparmamışıq, biz Ermənistanın himayədarları ilə müharibə aparmışıq və bu müharibədə Qələbə qazanmışıq. Ona görə bu Qələbənin tarixi əhəmiyyəti daha böyükdür. Biz sübut etmişik ki, ölümə getməyə hazırıq, öldü var, döndü yoxdur. Müstəqillik dövründə vətənpərvərlik ruhunda yetişən gənclərimiz ölümə gedirdilər, bilərəkdən ölümə gedirdilər Vətən uğrunda.

İkinci Qarabağ müharibəsində həlak olanların böyük əksəriyyəti gənc nəslin nümayəndələri idi. Onların heç biri Qarabağda olmamışdı, bu diyarı görməmişdilər, amma onların qəlbində yaşayan milli ruh, ədalət və Vətən sevgisi onları ölümə aparırdı. Biz bütün dünyaya sübut etdik ki, XXI əsrdə necə müharibə aparmaq lazımdır, ləyaqətlə müharibə aparmaq lazımdır, müasir üsullarla müharibə aparmaq lazımdır və cəmi 44 gün ərzində Ermənistan ordusu tamamilə məhv edilmişdir. Ermənistanın məhv edilmiş silah-sursatının, texnikasının və qənimət götürülmüş texnikasının qiyməti ən aşağı 4-5 milyard dollar təşkil edir. O başqa məsələdir ki, kasıb ölkə bu pulu haradan əldə edib. Ancaq demək olar ki, Ermənistan ordusu yoxdur. Ermənistan ordusunda müharibə zamanı kütləvi fərarilik hökm sürürdü, onların özlərinin etirafına görə, 10 min fərari olmuşdur Ermənistan ordusunda. Azərbaycan Ordusunda bir dənə də fərari olmamışdır.

**(Ardı 2-ci səhifədə)**

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Bu gün Azərbaycan Ordusu istənilən vəzifəni icra edə bilər





(Əvvəli 1-ci səhifədə)

Budur, xalqımızın böyüklüyü, xalqımızın qələbəyə inamı, xalq-iqtidar birliyi və bütün dünya azərbaycanlılarının birliyi. Mən bilirəm ki, siz və sizin kimi xaricdə yaşayan milyonlarla azərbaycanlı hərə öz ölkəsində həm müharibənin gedişatını yaxından izləyirdiniz, eyni zamanda, öz çıxışlarınızda, öz şərhlərinizdə, sosial şəbəkələrdə və digər imkanlardan istifadə edərək, Azərbaycanın haqq səsini, haqq işini yaşadığınız ölkələrin ictimaiyyətinə çatdırırdınız. Buna bu gün də ehtiyac var. Bu gün də ehtiyac var, çünki müharibə başa çatsa da, bizə qarşı olan ərazi iddiaları hələ ki, başa çatmayıb. Mən əminəm ki, bu da başa çatacaq. Əminəm ki, biz postmüharibə dövründə göstərdiyimiz səylər nəticəsində və bundan sonra göstərəcəyimiz səylər nəticəsində Ermənistanın və dünya erməniliyinin Azərbaycana qarşı ərazi iddialarını da aradan götürəcəyik. Ancaq bu gün hələ ki, bu iddialar var və biz buna hazır olmalıyıq. Biz müharibə dövründə - cəmi 44 gün ərzində 300-dən çox şəhər və kəndi döyüş meydanında azad etmişik. Məhz buna görə Ermənistan məcbur olub və noyabrın 10-da - noyabrın 9-dan 10-na keçən gecə kapitulyasiya aktına imza atdı. Məhz biz Şuşanı noyabrın 8-də azad edəndən sonra Ermənistan rəhbərliyi nəhayət anladı ki, müharibəni davam etdirmək onlara daha baha başa gələcək. Halbuki əgər onlar müharibənin ilk günlərində dediyim sözlərimə əməl etsəydilər və bizə işğal edilmiş torpaqlardan onların çıxarılmasının tarixini, cədvəlini versəydilər, müharibə daha tez dayana bilərdi. Mən müharibə dövründə dəfələrlə Azərbaycan xalqına müraciət edərkən deyirdim ki, Ermənistan rəhbərliyi bizə tarix versin, nə vaxt torpaqlarımızdan çıxır və həmin an biz müharibəni dayandırmağa hazırıq. Belə də oldu. Ancaq məcburən bunu etdilər. Qırx dörd gün ərzində tamamilə məhv edilmiş Ermənistan ordusu və Ermənistan dövləti faktiki olaraq uçurum kənarında idi. Məcburən noyabrın 10-da kapitulyasiya aktı imzaladı və biz bir güllə atmadan Ağdam, Kəlbəcər və Laçın rayonlarını geri qaytardıq. Beləliklə, biz müharibəni hərbi-siyasi yollarla həll etdik. Yenə də deyirəm, təkbaşına, heç bir vasitəçi olmadan.

Vasitəçilərə gəldikdə, əfsuslar olsun ki, bu gün də hələ də Minsk qrupu haqqında Ermənistanda yüksəkvəzifəli şəxslər sözlər deyirlər. Hesab edirəm ki, bu, əbəsdir, bunun heç bir mənası yoxdur. Minsk qrupu faktiki olaraq 2019-cu ildə iflic olmuşdur. 1992-ci ildə bu məsələni həll etmək üçün mandat almış bu qrup faktiki olaraq heç bir nəticə əldə etməmişdir. İndi bu qrupun tarixçəsinə və hərəkətlərinə, verdiyi təkliflərə nəzər yetirərkən bir daha görmək olar ki, bu qrup məsələni həll etmək üçün yaranmamışdır. Sadəcə olaraq, biz o vaxt bir qədər sadəlövh idik. Bu qrup məsələni həll etmək üçün yox, işğalı əbədiləşdirmək üçün yaradılmışdır. Minsk qrupunun həmsədr ölkələrində erməni lobbi qrupları çox təsirlidir. Məhz buna görə 28 il bu qrupun heç bir nəticəsi olmamışdır.

2019-cu ildə isə qrupun fəaliyyəti demək olar ki, dayanmışdır. Bunun da səbəbi Ermənistanın yeni rəhbərliyinin çox qəribə davranışı olmuşdur. Çünki Ermənistanın yeni rəhbərliyi 2018-ci ildə hakimiyyətə gələndə həm Minsk qrupunda, həm, - onu da açıq deməliyəm, - bizdə də bəzi ümidlər var idi ki, indi kriminal xunta rejim artıq devrildi və hakimiyyətə gələn yeni nəsil siyasətçilər reallığı dərk edəcəklər, anlayacaqlar ki, Azərbaycanla mübarizə aparmaq, müharibə aparmaq onların iqtidarında deyil. Demək olar ki, bir il ərzində aparılan fəal danışıqlar bu fikri daha da gücləndirirdi. Ancaq 2019-cu ildə Ermənistan rəhbərliyi tam fərqli mövqe sərgiləməyə başlamışdır. Ermənistan rəhbərliyi tərəfindən səsləndirilən cəfəng fikirlər faktiki olaraq danışıqlar prosesinə son qoymuşdur. "Qarabağ Ermənistandır və nöqtə" deməklə danışıqlar prosesinə son qoyuldu və bu açıqlamadan sonra mənimlə görüşə gələn Minsk qrupu demək olar ki, çox qeyri-müəyyən vəziyyətdə idi. Çünki bu bəyanatdan sonra hər hansı bir danışıqların aparılması qeyri-mümkündür. Çünki danışıqların mahiyyəti ondan ibarət idi ki, işğal altında olan torpaqlar azad olunacaq.

Faktiki olaraq Minsk qrupu ondan sonra hətta görüntü naminə hər hansı bir fəaliyyət göstərə bilmədi. Ancaq Ermənistan rəhbərliyi daha uzağa getdi. Ondan sonra bizə qarşı açıq təhdidlər dilə gətirildi. Yeni torpaqlar uğrunda yeni müharibə ilə bizi hədələdilər. Amma yenə də beynəlxalq ictimaiyyət buna susdu. Bu, açıq təhdiddir. Özü də işğalçı dövlət tərəfindən işğala məruz qalan dövlətə qarşı növbəti təhdiddir. Yəni, bizi növbəti işğalla hədələyirdilər. Ancaq nə BMT, nə ATƏT, nə başqa təşkilatlar, nə Minsk qrupu heç bir açıqlama verməmişdi. Əlbəttə ki, işğalçı bundan ruhlanaraq daha da azğınlaşmışdı və faktiki olaraq Ermənistan tərəfindən onilliklər ərzində uydurduğu mifologiyaya inanmağa başlamışdı. Biz bu mifologiyanı darmadağın etdik, cəmi 44 gün ərzində düşməni torpağımızdan qovduq, Ermənistan bizim qabağımızda diz çökdü, başını əydi, kapitulyasiya aktına imza atmağa məcbur oldu, imdad dilədi və bu gün də həmin vəziyyətdədir. Bu gün də yer qalmayıb qapısını döyməsin ki, amandır Azərbaycan bizi hədələyir, Azərbaycan bizi burada boğmaq istəyir. Biz öz vəzifəmizi icra etmişik. Bizim başqa dövlətlərin torpağında gözümüz yoxdur, heç vaxt olmayıb. Ancaq biz öz torpağımızı heç kimə verəsi deyilik və İkinci Qarabağ müharibəsi bunu bir daha sübut etdi.

Yəni, münaqişəyə son qoyan Azərbaycan əsgəri oldu, qəhrəman Azərbaycan əsgəri. Müharibənin son hadisələri məhz burada - Şuşada baş vermişdir. Sıldırım qayalara dırmaşaraq bizim qəhrəman əsgərlərimiz, zabitlərimiz demək olar ki, əlbəyaxa döyüşlərdə burada topla, tankla, artilleriya ilə silahlanmış Ermənistan ordusuna qalib gəldilər. Şuşa Zəfərindən sonra faktiki olaraq Ermənistan cəmi bir gün direniş, - əgər buna direniş demək mümkündürsə, - göstərməyə cəhd etmişdir və noyabrın 9-da artıq kapitulyasiya aktını imzalamağa hazır olduğunu bildirmişdir.

Biz müharibəni də ləyaqətlə aparmışıq, postmüharibə dövründə də özümüzü ləyaqətlə aparırıq. Artıq postmünaqişə dövrünün nəticələri haqqında danışmaq olar. Çünki bir daha demək istəyirəm, bizim Qələbəmiz, özü də 44 gün ərzində əldə etdiyimiz Qələbə bir çoxları üçün gözlənilməz idi. Hərbi ekspertlər, siyasətçilər, bu məsələ ilə məşğul olan müxtəlif təşkilatların nümayəndələri bizə həmişə deyirdilər ki, bu müharibəni Azərbaycan uda bilməz. Çünki Ermənistan bu 30 il ərzində işğal edilmiş torpaqlarda istehkamlar qurmuşdur, müdafiə xətləri qurmuşdur. Eyni zamanda, Qarabağın təbii relyefi elədir ki, torpaqları azad etmək çətin olacaq. Çoxlu itkilər olacaq, ancaq nəticədə bütün bu fərziyyələr demək olar ki, etibarsız oldu.

Onlar bir məsələni diqqətdən kənarda qoymuşdular - Azərbaycan xalqının əzmini, Azərbaycan əsgərinin gücünü, Vətən sevgisini. Bəli, düzdür, bəzi yerlərdə beş, bəzi yerlərdə altı müdafiə xətti qurulmuşdu, istehkamlar qurulmuşdu, tikanlı məftillər, dəmir parçaları və sair. Bölgənin coğrafiyası bizim üçün çox əlverişsiz idi. Bütün bunlara baxmayaraq, az itki verməklə, Ermənistan ordusundan iki-üç dəfə az itki verməklə biz tarixi missiyamızı yerinə yetirdik və son nöqtəni burada - tarixi şəhərimizdə qoyduq.

Bu gün Şuşaya gələn hər bir insan, hər bir azərbaycanlı görür ki, Şuşa Azərbaycan şəhəridir. Əgər belə olmasaydı, Şuşa belə ağır vəziyyətdə olmazdı. Siz, indi buraya gələn qonaqlar müharibədən ilyarım keçəndən sonra gəlirsiniz. Əgər müharibədən dərhal sonra gəlsəydiniz, görərdiniz ki, nə vəziyyətdədir. Hələ də dağılmış vəziyyətdədir. Ancaq Şuşa bərpa olunur, Şuşa dirçəlir və Şuşanın dirçəlməsi ilə bağlı gedən işlər çox genişmiqyaslıdır və bu haqda sizə məlumat veriləcək.

Əgər bu şəhər ermənilərə mənsub olsaydı, bu günə qoyardılarmı bunu? Burada cəmi 1800 adam yaşayırdı. Özü də onların 90 faizi hərbçilər və onların ailə üzvləri idi. Burada bir dənə də salamat tarixi bina qalmamışdır. Ermənilər 17 bulağın 17-sini də qurutmuşdular, məscidlərimizi təhqir etmişdilər, sökmüşdülər, saraylarımızı sökmüşdülər. Yəni, bir dənə də burada yeni bir bina tikilməmişdi. Sadəcə olaraq, bizim təbii sərvətlərimizi istismar ediblər və təkcə Şuşa yox, bütün digər şəhərlər də eyni vəziyyətdədir. Tamamilə dağılmış Ağdamı xarici ekspertlər, jurnalistlər Xirosimaya bənzədirlər. Bəli, Xirosima atom bombası nəticəsində məhv edildi. Ağdam və digər şəhərlər erməni vandallığı nəticəsində məhv edildi. Birinci Qarabağ müharibəsi dayanandan sonra 30 il ərzində binaları daş-daş söküb, daşıyıb satmışdılar və beynəlxalq təşkilatların hesabatlarında bu var. Qəbirləri qazırdılar, ölülərin qızıl dişlərini çıxarırdılar. Yəni, Ermənistan və erməni xalqı bu vəhşiliyə görə dünya miqyasında rəzil oldu. Ona görə gələn hər qonaq, azad edilmiş torpaqlara gedən hər qonaq erməni vəhşiliyini görür və görməlidir. Görməlidir ki, biz təkcə işğalçını yox, faşistləri məhv etdik. Onların Birinci Qarabağ müharibəsində, İkinci Qarabağ müharibəsində, iki müharibə arasındakı dövr ərzində bütün əməlləri faşist əməlləridir. Bizim dinc şəhərlərimizi müharibə dövründə ballistik raketlərlə atəşə tutmaq, insanları məhv etmək faşizm deyil, bəs nədir? "Toçka-U", "SCUD", "İsgəndər-M" raketi ilə Şuşa vurulmuşdu. Qar əriyəndən sonra Şuşada, şəhərin mərkəzində "İsgəndər-M" raketinin qalıqları aşkarlanmışdır və bir daha biz sübut etdik ki, Ermənistan bu ölümcül silahdan, qadağan edilmiş silahdan və onlarda heç cür olmayan silahdan istifadə edib. Buna inanmayanlar gəlib Hərbi Qənimətlər Parkında "İsgəndər-M" raketinin qalıqlarını görə bilərlər.

(Ardı 3-cü səhifədə)

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Bu gün Azərbaycan Ordusu istənilən vəzifəni icra edə bilər

(Əvvəli 2-ci səhifədə)

Biz faşizmi məhv etdik. Biz Cənubi Qafqazı faşizmdən xilas etdik. Ancaq hələ də faşizmin təzahürləri baş qaldırır, hələ də Ermənistanda bəzi dairələr və dünya erməniliyi, xarici ölkələrdə yaşayan ermənilər bizi hədələməyə çalışırlar. Amma İkinci Qarabağ müharibəsinin tarixçəsi onların yadından çıxmamalıdır. Biz gücümüzü artırmışıq. İlyarım ərzində ordu quruculuğu sahəsində çox böyük işlər görüldü. Bu işlərin bir hissəsi ictimaiyyətə təqdim edildi, bir hissəsi, əlbəttə ki, təqdim edilə bilməz. Ancaq hər kəs bilməlidir, bu gün Azərbaycan Ordusu istənilən vəzifəni icra edə bilər. Həm döyüş qabiliyyəti, həm milli ruh, həm mənəvi ruh, silah-sursat, texnika, yeni döyüşkən hərbi birləşmələrin yaradılması - bütün bunları biz məhz ona görə edirik ki, erməni faşizminin hələ də təzahürləri var və biz hər an erməni faşizmini,- əgər bir daha baş qaldırsa, - əzməyə hazır olmalıyıq və hazırıq. Ermənistan bunu yaxşı bilir, yaxşı başa düşür və heç vaxt bunu unutmamalıdır.

Biz bundan sonra ancaq və ancaq güclənəcəyik və postmüharibə dövrü bunu bir daha göstərdi. Həm ərazilərin bərpası, həm beynəlxalq müstəvidə addımlarımız bizim gücümüzü göstərdi. Çünki postmüharibə dövrü çox həssas bir dövrdür və artıq ilyarım keçəndən sonra tam əminliklə demək olar ki, biz bu çətin sınaqdan da şərəflə çıxdıq. Aparıcı beynəlxalq təşkilatlar postmüharibə reallıqlarını qəbul etdilər. BMT, hansı ki, Şuşada beynəlxalq tədbir keçirmişdir. Avropa İttifaqı hazırda Azərbaycan-Ermənistan arasında normallaşma prosesində çox fəal iştirak edir. ATƏT, hansı ki, çox yaxşı başa düşür Minsk qrupu artıq yoxdur. Düzdür mən, bir neçə ay bundan əvvəl, hələ Rusiya-Ukrayna müharibəsindən əvvəl demişdim, məndən soruşmuşdular ki, Minsk qrupu nə ilə məşğul olacaq? Dedim ki, 2022-ci ildə onların yaranmasının 30 illik yubileyidir. Yubiley keçirəcəklər, sonra pensiyaya gedəcəklər. Amma Rusiya-Ukrayna müharibəsi başlayandan sonra heç yubiley keçirməyə bunlarda fürsət olmadı.

Digər beynəlxalq təşkilatlar - məsələn, sədrlik etdiyimiz Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, bütün aparıcı beynəlxalq təşkilatlar bizim mövqeyimizi dəstəkləmişlər və postmünaqişə reallıqlarını qəbul etmişlər. İndi qonşu ölkələr 3+3 formatda beş ölkə hazırda əməkdaşlıq formatı yaradıbdır. Qonşu ölkələrin hamısı postmünaqişə reallıqlarını qəbul etmişlər. Böyük dövlətlər - Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Amerika Prezidenti, Böyük Britaniyanın Baş naziri mənə göndərdikləri məktublarda bu, açıq-aydın göstərilir. Yəni, biz artıq bu mərhələni keçdik və bundan sonra Azərbaycan-Ermənistan əlaqələrinin normallaşması məsələsi gündəlikdədir. Yenə də bu gündəliyi biz ortaya qoyduq. Bütün ağrılı məqamlara baxmayaraq, işğala baxmayaraq, edilmiş bu vəhşiliklərə baxmayaraq, bölgənin gələcəyi naminə biz hesab edirik ki, buna ehtiyac var və biz sülh gündəliyi təqdim etdik və Ermənistandan hər hansı bir cavab gəlmədi. Beynəlxalq təşkilatlar da demək olar ki, buna o qədər də maraq göstərmədilər. Ona görə biz konkret olaraq beş prinsipdən ibarət təklif irəli sürdük və Ermənistan bu beş prinsipi qəbul etdi. Beləliklə, Ermənistan rəhbərliyi rəsmən bəyan etdi ki, Azərbaycanın ərazi bütövlüyünü tanıyır və Azərbaycana hər hansı bir ərazi iddiası yoxdur və gələcəkdə də olmayacaq. Hesab edirəm ki, bu, postmünaqişə dövrü üçün vacib məqamdır və biz məhz bu beş prinsip əsasında danışıqları aparmaq fikrindəyik.

Hazırda iki ölkənin xarici işlər nazirləri, nazirlikləri işçi qrupları formalaşdırır və hesab edirəm ki, yaxın gələcəkdə konkret danışıqlara başlamaq lazımdır və danışıqları çox uzatmaq lazım deyil. Çünki məhz beş prinsip əsasında sülh müqaviləsi imzalanacaq. Ona görə müqavilənin mətni tezliklə hazırlana bilər, imzalana bilər və beləliklə, Ermənistanla Azərbaycan arasında əlaqələr, o cümlədən diplomatik əlaqələr yaradıla bilər. Bu təklifi irəli sürməklə bir daha biz xoş niyyətimizi göstəririk və yenə də deyirəm, uzaqgörənlik göstəririk. Ermənistanda hərdənbir baş qaldıran revanşist qüvvələr bilməlidirlər ki, bu, Ermənistan üçün yeganə çıxış yoludur və bəlkə də son şansdır. Əgər bundan imtina etsələr, onda biz də Ermənistanın ərazi bütövlüyünü tanımayacağıq, bunu rəsmən bəyan edəcəyik. İkinci Qarabağ müharibəsinin nəticələrini nəzərə alaraq Ermənistan tərəfi yaxşı başa düşməlidir ki, bu addım nəyə gətirib çıxaracaq.

Amma yenə də dediyim bütün bu müsbət məqamlara baxmayaraq, hər birimiz - həm Azərbaycan hökuməti, həm səfirliklər, diaspor təşkilatları, bütün fəallar yeni reallıqları dünya ictimaiyyətinə çatdırmalıdırlar. Sizin - xaricdə yaşayan azərbaycanlıların bu sahədə daha böyük imkanlarınız var. Son illər ərzində bizim diaspor təşkilatlarımız çox fəallaşıb, həm İkinci Qarabağ müharibəsində biz bunu gördük, həm də ondan əvvəlki dövrdə. Hətta erməni radikal qüvvələrinin fiziki hücumlarına baxmayaraq, - onlar yenə də say çoxluğundan istifadə edib bizim fəallara qarşı cinayət törətmişlər, - azərbaycanlılar öz sözünü demişdilər, bu gün də bunu etmək lazımdır.

Yəni, yaşadığınız ölkələrin ictimaiyyətini, əgər belə demək mümkündürsə, maarifləndirmək lazımdır - həm Azərbaycan reallıqları haqqında, postmünaqişə dövrü haqqında və Azərbaycan tarixi haqqında. Hesab edirəm ki, bu, çox vacibdir. Çünki tarixi amillər həmişə istənilən münaqişənin siyasi və digər yollarla həll edilməsi üçün çox vacibdir. Tarix də göz qabağındadır. Uzaq tarixə getməyə ehtiyac yoxdur. Sadəcə olaraq, XIX əsrdə imzalanmış müqavilələri beynəlxalq ictimaiyyətə çatdırmaq kifayətdir. Kürəkçay, Gülüstan, Türkmənçay sülh müqavilələri. Orada erməni əhalisindən söhbət getmir. Kürəkçay müqaviləsini İbrahimxəlil xan Şuşalı və Qarabağlı, - titulu belə də gedib, - imzalayıb. XIX əsrin bu tarixi hadisələrindən sonra Qarabağa ermənilərin kütləvi köçü başlamışdır. Bu da heç kimə sirr deyil və artıq dünya ictimaiyyəti, ekspertlər bunu bilir, yaxşı olar ki, geniş ictimaiyyət də bunu bilsin. Azərbaycan xalqına qarşı edilən haqsızlıqlar haqqında biz beynəlxalq ictimaiyyəti mütləq məlumatlandırmalıyıq. XIX əsrdə, XX əsrin əvvəllərində ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi. 1920-ci ildə sovet hakimiyyəti tərəfindən Zəngəzurun Azərbaycandan qoparılıb Ermənistana verilməsi, bu da tarixi faktdır. Ondan iki il əvvəl Azərbaycan Xalq Cümhuriyyətinin İrəvanı Ermənistana bağışlaması, bu da sənədlərlə təsdiq olunan faktdır. 1921-ci ildə sovet hakimiyyəti tərəfindən bizə qarşı növbəti təxribat hazırlanırdı. Zəngəzur 1920-ci ilin noyabrında bizdən qoparıldı, bir il sonra Qafqaz Bürosu Qarabağı da bizdən qoparmaq istəyirdi. Ancaq alınmadı və qərar qəbul olundu ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibində saxlanılsın. Amma buna baxmayaraq, ilyarım keçəndən sonra -1923-cü il iyulun 7-də Azərbaycan ərazisində tamamilə əsassız, süni bir qurum yaradıldı - Dağlıq Qarabağ Muxtar Vilayəti. Bunun yaradılmasının heç bir əsası yox idi. O vaxt indiki Ermənistanda yaşayan azərbaycanlıların sayı Qarabağda yaşayan ermənilərlə müqayisədə bəlkə də iki dəfə çox idi. Ancaq nədənsə, bu muxtar vilayəti orada yox, burada yaradıblar. Bunu yaradıblar və eyni zamanda, qədim Azərbaycan şəhərini - Şuşanı da onun tərkibinə salıblar, bir məqsədlə ki, Şuşa erməniləşsin. Çünki Şuşa tək bir qala kimi qalmışdı və yaxşı bilirsiniz ki, Şuşaya bütün yollar ermənilərin məskunlaşdığı yerlərdən keçirdi, ərazilərdən keçirdi. Yəni, Şuşaya gəlmək üçün mütləq ermənilərin yaşadıqları kəndlərdən keçmək lazım idi. İndi biz Zəfər yolunu çəkmişik. Zəfər yolunu bizim əsgər, zabitlər ayaqla açdılar, o dağın, dərənin, meşənin içi ilə. Yəni, bu da təxribat idi. Yəni, Şuşanı bizdən qoparmaq üçün, erməniləşdirmək üçün Şuşanı da saldılar bu süni qurumun tərkibinə. Amma alınmadı, nə qədər çalışsalar da, alınmadı. Şuşa öz milli ruhunu o vaxt həmişə qoruyurdu və işğal dövründə ermənilər Şuşanı erməniləşdirə bilmədilər.

Ondan sonra 1940-1950-ci illərdə azərbaycanlıların Ermənistandan kütləvi deportasiyası - bu da xalqımız üçün böyük faciə və böyük ədalətsizlik idi. Azərbaycanlılar öz tarixi torpaqlarından Azərbaycanın Mil-Muğan zonasına zorla köçürülmüşdür. O Azərbaycana qarşı bu edildi ki, İkinci Dünya müharibəsində 300 min Azərbaycan övladı müharibəyə getdi, qayıtmadı. O Azərbaycan ki, İkinci Dünya müharibəsində Sovet Ordusunun yanacağının 90 faizini verirdi. Əgər Azərbaycan olmasaydı, Azərbaycan nefti olmasaydı, Sovet İttifaqı müharibədə qələbə qazana bilməzdi və 3-4 il bundan sonra xalqımıza qarşı bu ədalətsizlik hansı mənəviyyata sığır?

Bu, tarixdir. Bu tarixi biz bilməliyik. Bu tarixi bilmədən 1980-1990-cı illərin tarixi yarımçıq qalacaq. Ondan sonra 1980-ci illərin sonlarında başlamış separatizm meyilləri faktiki olaraq Qarabağın böyük hissəsini Azərbaycandan qopardı. Hələ Sovet İttifaqı dövründə bunu etdilər. Xüsusi idarəetmə komitəsi yaradıldı və Moskvadan bir ermənipərəst adam təyin olundu. Ondan sonrakı tarix də bəllidir. Bax, bizim xalqımız iki əsr ərzində bütün bu iztirablardan keçib və nəhayət öz sözünü deyib. Nəhayət "Dəmir yumruq"la düşmənin başını əzib, tarixi ədaləti və milli ləyaqəti bərpa edibdir. Ona görə, çox vacibdir ki, bu tarixi məqamlar daim diaspor təşkilatlarının gündəliyində olsun.

Əlbəttə, mən çox şadam ki, xaricdə fəaliyyət göstərən diaspor təşkilatlarımız Azərbaycan ilə daim təmasdadırlar, Dövlət Komitəsi ilə təmasdadırlar və müxtəlif ölkələrdə fəaliyyət göstərən diaspor təşkilatları arasında koordinasiya da təkmilləşir. Bu da çox vacibdir. Əlbəttə, biz hamımız - Azərbaycanda yaşayan azərbaycanlılar istəyirik ki, xaricdə yaşayan azərbaycanlılar öz tarixi Vətəni ilə sıx bağlı olsunlar. Heç olmasa, ildə bir dəfə hər bir azərbaycanlı öz ailəsi ilə Azərbaycana gəlsə, çox yaxşı olar - xüsusilə azad edilmiş torpaqlara getmək üçün. İndi bu gün biz qurultayı Şuşada keçiririk. Ancaq azad edilmiş ərazilər 10 min kvadratkilometrdən çoxdur və indi marşrutlar da açılır, aeroportlar da tikilir. Ona görə gəliş-gediş çox rahat olacaq.

Əlbəttə, çox istəyirik ki, ikinci, üçüncü nəsil azərbaycanlılar öz mədəniyyətinə bağlı olsunlar. Əlbəttə, bu, o qədər də asan məsələ deyil. Burada onlar, ilk növbədə, Azərbaycan dilini bilməlidirlər. Burada, əlbəttə ki, təkcə ailələrdə Azərbaycan dilini yaşatmaq mümkündür, ancaq kifayət deyil. Ona görə Azərbaycan məktəblərinin, bazar günü məktəblərinin açılması istiqamətində də biz hər zaman kömək göstərməyə hazırıq. Əslində, bunu edirik. Bəlkə də bunu daha da təşkilatlanmış şəkildə etmək lazımdır. Çünki Ana dili əsas amildir. Ana dili bütün Azərbaycan vətəndaşlarını birləşdirir.

Bizim xaricdə yaşayan gənc azərbaycanlılarımız həm İkinci Qarabağ müharibəsinin tarixini yaxşı bilməlidir, həm də bu həqiqətləri öz dostlarına çatdırmalıdırlar. Yəni, bir sözlə, xaricdə yaşayan azərbaycanlılar böyük qüvvədir. Onların fəaliyyəti ölkəmiz üçün çox önəmlidir. Onların fəallığı və Azərbaycan həqiqətlərinin çatdırılması, Azərbaycan maraqlarının müdafiə edilməsi, əlbəttə ki, bizim dövlətimizi daha da gücləndirir. Biz Azərbaycan dövləti olaraq öz fəaliyyətimizdə həmişə xaricdə yaşayan azərbaycanlıların yaşayışı ilə maraqlanırıq, təmaslar qururuq. Dövlətlərarası münasibətlər müstəvisində bu, önəmli bir amildir. Mən də öz həmkarlarımla, harada ki azərbaycanlılar yaşayır, o ölkələrin rəhbərləri ilə daim bu məsələyə diqqət yetirirəm.

Şuşada keçirilən qurultayın çox böyük tarixi mənası var. Bu gün Azərbaycan yeni dövrə qədəm qoyub. Biz otuz il torpaqları işğal edilmiş ölkə kimi yaşamışıq. Bu, bizim üçün çox ağır idi. Mənim üçün Prezident kimi, hər bir vətəndaş üçün, sizin üçün - xaricdə yaşayan azərbaycanlılar üçün. Biz bilirdik ki, bu məğlubiyyətin heç bir real əsası olmamışdır. Sadəcə olaraq 1990-cı illərin əvvəllərində Azərbaycanda baş vermiş hadisələr - hakimiyyət uğrunda gedən müharibə, milli xəyanət, satqınlıq və digər bəd əməllər, bax, bu vəziyyəti yaratmışdır. Biz bilirdik ki, bu Qələbəyə layiqik. Bir daha demək istəyirəm, - çıxışımın əvvəlində mən bunu dedim, - mənim üçün Prezident kimi başlıca vəzifəm ölkəmizi gücləndirmək və ərazi bütövlüyümüzü bərpa etmək idi. Sizin üçün də çox çətin idi. Çünki sizin yaşadığınız ölkələrdə erməni diaspor təşkilatları var. Siz ermənilərlə istər-istəməz hansısa ünsiyyətdə olursunuz, görüşürsünüz, ya da ki, haradasa tədbirlərdə bir yerdə olursunuz. Mən başa düşürəm ki, bu dövr sizin üçün çox ağır idi.

Ancaq bu gün vəziyyət tam başqadır. Bu gün alnımız açıqdır, bu gün üzümüz gülür, bu gün başımız dikdir və həmişə belə olacaq. Mən tam əminəm ki, bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, Azərbaycan dövləti qalib dövlət kimi əbədi yaşayacaq. Biz öz torpağımızdayıq, bu torpaqda möhkəm dayanmışıq və heç kim heç vaxt bu torpaqlardan bizi tərpədə bilməz.

Yaşasın Şuşa! Yaşasın Qarabağ! Hamımız birlikdə: Qarabağ Azərbaycandır! Sağ olun.

* * *

Xatırladaq ki, Dünya Azərbaycanlılarının I Qurultayı ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci ildə, II qurultay Prezident İlham Əliyevin Sərəncamına əsasən, 2006-cı ildə, III qurultay 2011-ci ildə, IV qurultay isə 2016-cı ildə keçirilib.

# Azərbaycan Tibb Universitetinin şəhid məzunlarının xatirəsinə ucaldılan abidənin açılışı oldu





*Azərbaycan Tibb Universitetində Vətənimizin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən universitetin şəhid məzunlarının xatirəsinə ucaldılan möhtəşəm abidənin açılış mərasimi keçirildi.*

Mərasimdə universitetin professor, müəllim, tələbə heyəti, Hərbi Tibb Fakültəsinin zabit və kursantları, Nəsimi rayon İcra Hakimiyyətinin nümayəndələri, şəhid məzunların ailələri, valideynləri, yaxın qohumları və başqa qonaqlar iştirak etdilər.

Abidənin üzərindən örtük götürüləndən sonra ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı, respublikamızın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Dövlət Himni səsləndirildi.

Tədbir iştirakçıları abidənin önünə tər qərənfillər düzdülər.

Tədbirin aparıcısı Hərbi Tibb Fakültəsinin zabiti mayor Yaqub Qasımov 44 günlük Vətən müharibəsində şəhid olan universitetin məzunlarının əziz xatirəsini əbədiləşdirmək üçün nəzərdə tutulan abidənin tikintisinə görə universitetin rəhbərliyinə hərbçilər adından təşəkkürünü bildirdi.

Azərbaycan Tibb Universitetinin rektoru professor Gəray Gəraybəyli universitetin şəhid məzunlarının xatirəsini əbədiləşdirmək üçün hazırladıqları bu abidənin yenidənqurma işlərindən sonra açılışına toplaşdıqlarını və abidə



üzərində 18 şəhidin adının həkk olunduğunu dedi. O, 2020-ci il sentyabrın 27-də başlayan, 44 gün davam edən və düşmən işğalında olan ərazilərimizin azad olunması ilə nəticələnən Vətən müharibəsini tariximizin parlaq səhifəsi, hamımızın qürur mənbəyi kimi dəyərləndirdi: "Həmin günlərdə Prezident İlham Əliyev yalnız hərb meydanında Müzəffər sərkərdə kimi deyil, həm də diplomatik cəbhədə olduqca uğurlu fəaliyyət nümunəsi göstərdi. İnformasiya müharibəsində Azərbaycanın haqq səsi oldu, cəsarətlə bütün təzyiqlərə sinə gərdi. 44 gündə Azərbaycan Ordusu bütün dünyaya sübut etdi ki, döyüş meydanında zəfəri təkcə tanklarla deyil, həm də ağılla və sarsılmaz inamla qazanmaq olar".

Döyüşlərin iki cəbhədə getdiyini xatırladan rektor, həm düşmənlə üz-üzə aparılan ön cəbhədəki, həm də yaralıların həyatını xilas etmək uğrunda həkimlərin apardığı döyüşlərdən də söhbət açdı. Həkimlərimizin bu müharibənin hər iki cəbhəsində qalib olmağını qürur hissi ilə yada saldı: "Bu döyüşlərdə tibb işçilərindən 159 nəfər yaralandı, 42 nəfər isə torpaqlarımızın azadlığı uğrunda canından keçərək şəhidlik zirvəsinə ucaldı. Vətən müharibəsində hərbi tibb personalı öz vəzifə borcunu layiqincə yerinə yetirdi".

Nəsimi rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov bu nəcib addıma görə ATU-nun rəhbərliyinə minnətdarlığını bildirdi. Üzərində qəhrəman övladlarımızın adları həkk olunan bu abidənin universitet tələbələri, professor-müəllim heyəti üçün müqəddəs ziyarət yeri olacağını vurğuladı. "Şəhidlər ölmür, onların müqəddəs ruhu yaşayır", - deyən icra başçısı bütün şəhid ailələrinin qürurla, başı dik gəzmək haqqı olduğunu bildirdi: "Biz bu gün həm də ona görə qürurluyuq ki, artıq bu abidənin önündə qəhrəman xalq olduğumuzu düşünürük. Prezident İlham Əliyev beynəlxalq tribunalardan Qarabağa qayıdacağımızı bütün dünyaya çatdırırdı. Nəhayət, xalqımız Ali Baş Komandanın və ordunun ətrafında sıx birləşərək böyük Qələbə qazandı. Bu gün o müqəddəs torpaqlarımızda azan səsini, Dövlət Himnimizi eşitmək, üçrəngli bayrağımızı dalğalandırmaq böyük fəxarətdir".

Sonda abidənin açılış mərasimində çıxış edən kapitan Şöhrət Qasımovun həyat yoldaşı Türkan Qasımzadə də öz ailəsi və bütün şəhid ailələri adından göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə, Müdafiə Nazirliyinə və şəhid həkimlərin xatirəsini əbədiləşdirdikləri üçün ATU-nun rəhbərliyinə təşəkkürünü bildirdi. O, Azərbaycanın 44 günlük müharibəni şəhidlərimizin canı bahasına şanlı zəfərlə başa vurduğunu dedi: "Bizim qəhrəman həkimlərimiz də bir əlində yardım çantası, bir əlində silahla vuruşdular. Bu gün onların yoxluğu ilə barışmaq çətindir. Şəhidlərimizin vətənpərvər ruhda tərbiyə olunmasında, təbii ki, universitetin müəllimlərinin də rolu böyükdür. Mən onlara bu çətin və şərəfli yolda uğurlar arzulayıram. İnanıram ki, bundan sonra da gənclərimizi məhz vətənpərvər ruhda tərbiyə edəcək, qəhrəman şəhidlərimizi onlara tanıdacaqlar. Allah bütün şəhidlərimizə rəhmət eləsin!"

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

*Nümunəvi xidmət*

# Vətən müqəddəsdir və onu qorumaq ən şərəfli vəzifədir

*"N" hərbi hissəsində təlim zamanı həm komandirləri, həm də xidmət etdiyi bölmənin şəxsi heyəti tərəfindən xoş sözlərini eşitdiyim müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Adil Quliyevlə tanış oldum. Adil komandirlərinin də dediyi kimi nizam-intizamı, yüksək mədəniyyəti və əxlaqı ilə seçilən hərbi qulluqçularımızdandır.*

"Ordu sıralarında xidmət edən hər bir kəsin vəzifə borcu ərazi bütövlüyümüzü, suverenliyimizi, müstəqilliyimizi göz bəbəyi kimi qorumaq, xalqımızın etibarlı müdafiəsində iştirak etmək, Ali Baş Komandanımızın bizə olan etimadını layiqincə doğrultmaqdır", - deyə müsahibim söhbətə başladı. "Hər bir əsgər hərbi biliklərə dərindən yiyələnərək, qarşıya qoyulan tapşırıqların öhdəsindən operativ surətdə layiqincə gəlməyə borcludur. Xidmət etdiyim bölmənin şəxsi heyəti, təcrübəli və qayğıkeş komandirlərimizin diqqət və qayğısı ilə əhatələnib. Çünki şəxsi heyətin mənəvi-psixoloji vəziyyətini diqqət mərkəzində saxlamaq vacibdir. Komandirlərimiz bizim təcrübəli hərbi qulluqçu kimi yetişməyimizdə böyük rol oynayırlar. Biz də öz növbəmizdə müddətli həqiqi hərbi xidmətdə olan əsgərlərimizlə öz təcrübələrimizi bölüşür, onların əsl döyüşçü kimi formalaşmasında komandirlərimizə yardımçı oluruq. Şəxsi heyətin nəzəri biliklərdən savayı, praktiki döyüşaparma bacarığını artırmaq məqsədilə təlimlər, çöl dərsləri və s. də təşkil olunur".



Həmsöhbətim Vətənin bütövlüyü uğrunda hər bir soydaşımızın əməyinin zəruriliyini qeyd etdi. "Bu gün müstəqil Azərbaycanımızın, Ana Vətənimizin bütövlüyünü qorumaq üçün hər birimiz əlimizdən gələni etməli, ona göz dikən qüvvələrə qarşı mübarizə aparmalıyıq. Çünki Vətəni qorumaq müqəddəs vəzifədir. Biz ömrümüzü müqəddəs vəzifənin icraçıları olaraq hərb sahəsinə bağlamışıq. Buna görə də üzərimizə düşən şərəfli borcu məsuliyyətlə yerinə yetirməli, verilən tapşırıqları vaxtlı-vaxtında və qüsursuz yerinə yetirməliyik. Ordu sıralarına böyük həvəslə gəlmişəm. Əynimdəki mundirin uzun illər xəyalını qurmuşam. Çünki doğulub boya-başa çatdığım torpaqlar yağı düşmən əlindən çox əziyyətlər çəkib. Düşmənə qarşı hər zaman intiqam hissi ilə alışıb yanmışam. Şükürlər olsun ki, qisas qiyamətə qalmadı. Qüdrətli ordumuz məkrli düşməni torpaqlarımızdan birdəfəlik qovdu. Əgər qazanılan qələbədə mənim də payım varsa, çox xoşbəxtəm. Çünki bu Qələbəni qanı ilə yazan oğullarımızı nə qədər tərifləsək, onlar haqqında nə qədər danışsaq azdır. Bu oğulları hər zaman yüksək ehtiramla anmağa borcluyuq. Bölməmizdə də tarix yazan, 44 günlük haqq savaşında şəhid olan qəhrəman oğullarımız haqqında söhbətlər təşkil olunur. Söhbətlər zamanı gənc əsgərlər ətraflı öyrənirlər ki, Azərbaycan əsgəri mətin addımlarla irəliləyərək tarix yazdı, hər kəsə sübut etdi ki, Vətən müqəddəsdir və onu qorumaq peşələrin ən şərəflisidir".

Adil kimi vətənpərvər, öz nümunəvi xidməti ilə fərqlənən, yüksək mədəni və əxlaqi keyfiyyətlərə sahib döyüşçü oğullarımızla tanış olduqca bir daha əmin oluram ki, Azərbaycan əsgəri bundan sonra da dünyada əsl qüdrət nümunəsi olacaq və hər zaman qazandığı uğurlarla ön sıralarda qərarlaşacaq.

**Baş leytenant**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

# Dövlətçiliyə xidmət, həm də vətəndaşlıq borcudur!



Müdafiə Nazirliyi Hərbi Polis İdarəsinin yarandığı gündən 30 il keçir. Arxada qalmış bu illər ərzində çətin və şərəfli xidmət yolu keçən Hərbi Polis İdarəsi müdafiə nazirinin 10 aprel 1992-ci il tarixli əmri ilə yaradılmışdır. Əlamətdar gün münasibətilə Hərbi Polis İdarəsində tədbir keçirildi.

Ümummilli lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Hərbi Polis İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat üzrə bölmə rəisi polkovnik-leytenant Anar Əhmədov Hərbi Polis İdarəsinin yaradılmasının 30 illiyi ilə əlaqədar Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun şəxsi heyətə ünvanladığı təbrik məktubunu oxudu. Təbrikdə deyilirdi: "İnanıram ki, Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi anda və nizamnamələrə bundan sonra da sadiq qalacaq, döyüş və mənəvi-psixoloji hazırlıqda yeni uğurlar əldə edəcək və torpaqlarımızı Silahlı Qüvvələrin Ali Baş Komandanının rəhbərliyi altında işğaldan azad edən rəşadətli Azərbaycan Ordusunun şanlı ənənələrini davam etdirəcəksiniz".

Tədbirdə Hərbi Polis İdarəsinin rəisi polkovnik-leytenant Elgün Əliyev çıxış edərək hərbi polisin fəaliyyətə başladığı gündən çətin, şərəfli xidmət və döyüş yolu keçməsindən söz açdı. "Yaradılmasında əsas məqsəd dövlətin və xalqın mənafeyinin müdafiəsində, Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün təmin olunmasında iştirak etməkdən ibarət olan hərbi polis həmişə qarşıya qoyulan mühüm tapşırıqları bacarıqla yerinə yetirmişdir. Hərbi polis patrulları ölkənin paytaxt və digər şəhərlərində, hərbi qarnizonların yerləşdiyi yaşayış məntəqələrində stasionar, eləcə də səyyar postlarda da xidmət aparır. Bu postlar hərbi nəqliyyatın təqdim edilən sənədlərə müvafiq olaraq marşrutlar üzrə hərəkət etməsini daim nəzarətdə saxlayır. Zərurət yarandıqda marşrutların tənzimlənməsini, hərbi maşın karvanlarının təhlükəsizliyinin təmin olunması işini də həyata keçirir", - dedi idarə rəisi.

İdarənin tabeliyində fəaliyyət göstərən Kinologiya Mərkəzində saxlanılan və daim təlimatlandırılan cins itlərin təyinatı üzrə qoşun növlərinin sərəncamına verilməsindən danışan polkovnik-leytenant Elgün Əliyev bildirdi ki, xüsusi təlim görmüş bu itlərdən minaaxtarma işində, qarovul xidməti prosesində, həmçinin xidmətin başqa sahələrində istifadə olunur.




Hərbi polisin şəxsi heyəti Vətən müharibəsində də iştirak edib. Torpaqlarımızın azadlığı uğrunda vuruşduğunu bildirən idarə rəisi İkinci Qarabağ müharibəsində şəhid olan hərbi qulluqçuların vətənpərvərliyindən, qəhrəmanlığından, hazırda xidmətin təşkilindən söz açdı. "Müharibə şəhidsiz, qazisiz başa çatmır. Vətən torpağının hər qarışı uğrunda canını sipər edənlərin bizlərə əmanət qoyduğu ərazi bütövlüyümüzü qoruyub saxlamaq hər birimizin həm vəzifə, həm də vətəndaşlıq borcudur. İstər döyüşlər zamanı, istərsə də indi işğaldan azad olunmuş ərazilərdə komendant və patrul xidmətinin təşkili, hərbi avtomobil texnikalarının müşayiəti, axtarış fəaliyyəti və s. xidməti prosesləri hərbi polisin şəxsi heyəti tərəfindən təşkil edilib. Qarşıya qoyulan tapşırıqları bacarıqla yerinə yetirilib. Hazırda bölmələrimiz işğaldan azad edilmiş yaşayış məntəqələrində xidmət aparır, qoşunların yerləşdiyi ərazilərdə təhlükəsizliyin və nizam-intizamın təmin olunmasını nəzarətdə saxlayırlar. Stasionar və səyyar postlarımızda xidmət aparan şəxsi heyət əraziyə daxil olan texnikaların və şəxsi heyətin yoxlanılmasını, həmçinin qeydiyyatını aparır, hərbi nəqliyyat vasitələrinin hərəkətini istiqamətləndirir. Bundan başqa, bölmələrimiz ordumuzun yerləşmə ərazilərinə gedən avtomobil karvanlarının hərəkətinin təhlükəsizliyini təmin etmək məqsədilə onları müşayiət edir. Eləcə də zabitlərimiz beynəlxalq səviyyəli tədbirlərdə, Beynəlxalq Qırmızı Xaç Komitəsinin seminarlarında, habelə NATO-nun xətti ilə təşkil olunan kurslarda iştirak edir, peşəkarlıq və bacarıqlarını daha da artırırlar. Bu gün hərbi polis Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin, müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi və qayğısı sayəsində Azərbaycan Ordusunda qanunçuluğun və hərbi intizamın keşiyində dayanan mütəşəkkil bir quruma çevrilmişdir. Əminliklə bildirirəm ki, hərbi polisin şəxsi heyəti xalqımızın və dövlətimizin etimadını bundan sonra da şərəf və ləyaqətlə doğruldacaq, döyüş və mənəvi-psixoloji hazırlığını daim yüksəldəcək. Hərbi Polis İdarəsinin yaradılmasının 30 illiyi münasibətilə şəxsi heyəti təbrik edir, çətin və şərəfli xidmətinizdə hamınıza uğurlar arzulayıram!






Hərbi Polis İdarəsinin qərargah rəisi polkovnik Zahir Quliyev də çıxış edərək ötən illər ərzində qazanılan uğurlardan danışdı:

- İdarəmiz çox çətin, amma olduqca şərəfli xidmət yolu keçib. 1992-1993-cü illər ərzində Hərbi Polis İdarəsinin tərkibində müxtəlif bölgələrdə bölmələr yaradılaraq formalaşdırılıb. Qurum olaraq tabeliyimizdə olan bölmələrin döyüş və mənəvi-psixoloji hazırlığı yüksək səviyyədədir. Xüsusi olaraq qeyd edim ki, Hərbi Polis İdarəsi "Dəmir yumruq" əməliyyatlarında fəal iştirak edərək, düşmən üzərində qələbənin qazanılmasında üzərinə düşən tapşırıqları uğurla yerinə yetirdi. Torpaqlarımız işğaldan azad olunduqca mühüm əhəmiyyətli obyektlər dərhal mühafizəyə götürülmüş, komendant postları qurulmuş, mənfur düşmənin qoyub qaçdığı silah və texnikalar ərazilərdən yığılaraq aidiyyəti üzrə müvafiq orqanlara təhvil verilmişdir. Bununla yanaşı, bölmələrimiz Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin və yaralıların təxliyə edilməsi kimi məsuliyyətli tapşırıqları da yerinə yetirmişdir. Kollektivimiz istənilən an döyüş tapşırığını yerinə yetirməyə hazır və qadirdir.



Hərbi Polis İdarəsinin zabiti polkovnik Mirhəmid Nağıyev öz növbəsində çıxış edərək dedi ki, bölmələrimiz şərəfli xidmət yolu keçib.

- Hazırda ordumuz növbəti yüksəliş dövrünü yaşayır. Müzəffər Ali Baş Komandanın diqqət və qayğısı, Azərbaycan Respublikasının müdafiə nazirinin rəhbərliyi sayəsində maddi-texniki bazamız tamamilə yenilənmişdir. İkinci Qarabağ müharibəsindəki şanlı qələbəmizdən sonra işğaldan azad olunmuş ərazilərdə yeni bölmələrimiz yaradılmışdır. Döyüş hazırlığı planına uyğun olaraq hazırda şəxsi heyətlə ictimai-siyasi hazırlıq dərsləri, təlimlər, müsabiqələr, gecə və gündüz atış çalışmaları keçirilir. Əminik ki, bu tədbirlər zabit və əsgərlərimizin döyüş hazırlığını daha da artıracaq, uğurlarımız davamlı olacaq. Bu günə qədər xidmətdə qazandığımız uğurlar 30-cu ildönümümüzə ən yaxşı töhfədir.



Ədliyyə polkovnik-leytenantı Şirin İsmayılov, polkovnik-leytenant Azər Allahverdiyev, mayor Rəsul Rəsulov, gizir Sevinc Qasımova, mülki işçi Ramiz Tağıyev və başqaları da çıxış edərək Hərbi Polis İdarəsinin yaranmasından, xidməti fəaliyyətindən və görülən işlərdən ətraflı söz açdılar.

Hərbi Polis İdarəsinin fəaliyyətini əks etdirən videoçarx nümayiş olundu.

Tədbirin sonunda idarə rəisinin əmri ilə xidmətdə fərqlənən hərbi qulluqçular mükafatlandırıldılar.

Hərbi Polis İdarəsinin yaradılmasına həsr olunmuş tədbir bir amalın təsdiqi kimi yekunlaşdı: "Dövlətçiliyə xidmət, həm də vətəndaşlıq borcudur!"

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# Vətən müharibəsində qazanılan Zəfər xarici ölkələrdə də öyrənilir





Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatlarının Oklahoma ştatı ilə "Ştatla Tərəfdaşlıq Proqramı" çərçivəsində qurulmuş əlaqələrin 20 ili tamam olur. Keçən zaman müddətində dövlətlər arasında bütün sahələrdə çox yaxşı diplomatik əlaqələr qurulub. Oklahoma Milli Qvardiyası və Azərbaycanın Müdafiə Nazirliyi də bu illər ərzində zabitlərin inkişafı, tibbi əməliyyatlar, logistika, aviasiya təhlükəsizliyi və kibermüdafiə sahəsində çoxsaylı mübadilələr proqramları vasitəsilə əməkdaşlıq edirlər.

Bu münasibətlə martın 28-dən aprelin 2-dək Oklahoma Milli Qvardiyasının dəvəti ilə Azərbaycan Müdafiə Nazirliyinin 5 zabiti - polkovnik-leytenant Anar Eyvazov, tibb xidməti polkovnik-leytenantı Səxavət Hüseynov, tibb xidməti kapitanları - Ramin Alıyev, Elvin Məmmədov, tibb xidməti baş leytenantı Zaur Əhmədzadə Oklahoma ştatında keçirilmiş "Yaralıların toplama məntəqəsindən tibbi təxliyəsi" adlı tədbirdə iştirak ediblər.

Səfər haqqında məlumat verən polkovnik-leytenant Anar Eyvazov bildirdi ki, tərəfdaş olduğumuz ölkənin tibb xidməti zabitləri ilə birlikdə hərbi qulluqçuların ilkin tibbi hazırlıq dövrünə cəlb olunması, tədris dövrünün müddəti, özünə və yoldaşına ilk tibbi yardım göstərilməsi fonunda nəzəri, praktiki məşqlərin keçirilməsi, tibbi yardım dəstlərinin, tibbi texnikaların təchizatı və quru, hava yolu ilə təxliyə prinsipləri mövzusunda fikir mübadiləsi apararaq ordumuzda tibb xidmətində səmərəliliyin artırılması məqsədilə təcrübə qazandıq. "Bütün bunlarla yanaşı, bu tədbir daha çox fikir mübadiləsi çərçivəsində baş tutdu. Mövzu ilə əlaqədar hər iki tərəf öz təcrübəsindən yararlanaraq fikirlərini bildirdi. Bu baxımdan Vətən müharibəsi bizim üstünlüyümüz idi ki, biz yeni metodlardan, yeni texnologiyalardan istifadə haqqında öz fikirlərimizi çatdırdıq. Bu, onlar üçün daha çox maraq kəsb edirdi. Belə ki, Azərbaycanın döyüş təcrübəsi və taktikası bu gün dünyanın inkişaf etmiş ölkələrinin hərbi məktəblərində də öyrənilir. Son dərəcə çətin relyefdə 44 gün ərzində ən müasir döyüş silahlarının tətbiqi ilə şanlı Qələbə qazanan Azərbaycan Ordusu yüksək peşəkarlıq nümayiş etdirdi. Ordumuz ilk gündən düşmən sədlərini yararaq irəlilədi və qələbə qazandı.

Vətən müharibəsində qələbənin tarixi əhəmiyyətinə toxunan Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev çıxışlarının birində qeyd etdi ki, "İkinci Qarabağ müharibəsi də bizim gücümüzü göstərdi, müasirliyi göstərdi. Çünki biz XXI əsrin müharibəsini aparmışıq və bu gün artıq sirr deyil ki, dünyanın aparıcı hərbi məktəblərində İkinci Qarabağ müharibəsindəki əməliyyatlarımız, bizim uğurlarımız, Qələbəmiz öyrənilir. Dünya mətbuatında artıq dəfələrlə məlumat verilmişdir ki, dünyanın aparıcı ölkələri, o cümlədən Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Almaniya və inkişaf etmiş digər ölkələr İkinci Qarabağ müharibəsinin bütün aspektlərini öyrənirlər".

Biz müxtəlif görüşlərdə, keçirilən təlimlərdə bunun şahidi oluruq".

XXI əsrin müharibəsini nümayiş etdirərək 44 gün müddətində Qələbə qazanan Azərbaycan Ordusunun keçirdiyi uğurlu əks-hücum əməliyyatının gedişi bu gün də Pentaqon tərəfindən təhlil olunur. ABŞ Quru Qoşunlarının Baş Qərargah rəisi general Ceyms Makkonvil Azərbaycan Ordusunun pilotsuz uçuş aparatlarından uğurla istifadə etməsini misal göstərib. Onun sözlərinə görə, "Qarabağda pilotsuz uçuş aparatlarının aktiv istifadə olunması ABŞ Ordusunun, xüsusən, hava hücumundan istifadə sisteminin təkmilləşdirilməsinin vacibliyini ortaya qoyub. Qarabağdakı döyüşlər, digər yerlərdə gedən döyüşlər gələcək müharibələrdə ölümcül PUA-larla üzbəüz gələcəyimizə dəlalət edir".




Oklahoma Milli Qvardiyasının tədris mərkəzinin rəhbəri Sr.Leeder və heyət ilə tanışlıq görüşü barədə ətraflı məlumat verən tibb xidməti polkovnik-leytenantı Səxavət Hüseynov bu gün münaqişə zonalarında şəraitə uyğun olaraq istifadə ediləcək ilkin tibbi yardım dəst və vasitələrinin tədris dövründə tibbi hazırlıq səviyyələri üzrə nümayiş olunaraq təcrübə mübadiləsi aparılmasından, simulyasiya otaqlarında yaralanmalar və xəsarət alma səhnələri yaradılaraq şəraitə uyğun döyüş meydanından təhlükəsiz nöqtəyə çıxarılması ilə tibbi yardım üsullarının praktik formada göstərilməsindən danışdı. "Hərbi Hava Qüvvələrinin hərbi hissəsində tədris məşqləri üçün hazırlanmış təxliyə təyyarəsinin imkanları, tutumu və təxliyə zamanı göstəriləcək tibbi yardım metodu, üsulları ilə praktik formada tanış edildik. Bizim üçün yeniliklər də var idi. Vətən müharibəsində apardığımız təxliyənin operativliyini özlüyümüzdə bir daha kəşf etdik".

Vətən müharibəsində döyüş meydanında yaralıya göstərilən yüksək keyfiyyətli ilk tibbi yardım nəticəsində itkilərimiz minimum səviyyədə oldu. Güllələr altında yaralıya ilk yardımın göstərilməsi, şok əleyhinə tədbirlərin aparılması, qanaxmanın dayandırılması, onların döyüş bölgəsindən çıxarılması və təxliyəyə hazırlanması, sözsüz ki, tibb heyətinin peşəkarlığından xəbər verirdi.

Həkimlərimizin peşəkarlığından, bilik səviyyəsindən danışan tibb xidməti polkovnik-leytenantı onların əksəriyyətinin Hərbi Tibb Fakültəsinin məzunu olduğunu, yüksək səviyyədə ilkin tibbi təhsil aldıqlarını və davamlı olaraq ölkə xaricində keçirilən kurslarda, konfranslarda iştiraklarının böyük önəm daşıdığını diqqətə çatdırdı. Bu bizim üçün bir üstünlükdür. Oklahoma Milli Qvardiyasında Hərbi Tibb Fakültəsi yoxdur, hərbi həkimlər xaricdə təhsil üçün təkmilləşmə kurslarına göndərilmir. Mərkəzləşdirilmiş ştatlarda tibb məntəqələri, hospitallar fəaliyyət göstərmir. Bir Vaşinqtonda hospital və Almaniyada reabilitasiya mərkəzi mövcuddur.

Tibb xidməti polkovnik-leytenantı Səxavət Hüseynov tədbirdə cərrahiyyə sahəsində xırda alətlərdən istifadə ilə bağlı təcrübəsini onlarla bölüşüb.

Tibb xidməti kapitanı Ramin Alıyev qeyd etdi ki, orada müşahidə etdiyim müasir dövrün tələblərinə uyğun ilkin tibbi yardım vəsaitləri və cihazların təchizatı, hər bir hərbi qulluqçunun fərdi tibbi yardım çantası ilə təmin edilməsi, sanitar çantalarının və təcili tibbi yardım çantalarının finger tipli pulsuoksimetriya cihazları ilə və şinalarla komplektləşdirilməsi bizdə də yüksək səviyyədədir.

- Oklahoma Milli Qvardiyasının tədris mərkəzində bizə "Qan qrupunun ekspres-təyini" aparatını təqdim etdilər. Bu aparatın onlar üçün yeni olduğunu bildirdilər. Biz isə bu aparatdan nəinki Vətən müharibəsində, hətta 2016-cı ilin Aprel döyüşlərində də istifadə etmişdik. Bunun tətbiqi bizdə daha geniş yayılıb, nəinki onlarda. Bu baxımdan bizim tibb xidməti ilə onların tibb xidməti arasında çox da qlobal bir fərq yoxdur. Vətən müharibəsində tibb xidmətinin əldə etdiyi inkişaf bir daha öz təsdiqini tapdı. Tibb xidmətinin təşkilində, yaralıların təxliyəsində avadanlıq baxımından fərqimiz yox dərəcəsindədir. Bu bizə Vətən müharibəsində əldə etdiyimiz Qələbədə minumum itki verməyimizdə özünü göstərdi.

Bunlarla yanaşı, bizə təqdim olunan fərdi sarğı paketinin eynisi hal-hazırda Azərbaycan Müdafiə Sənayesində istehsal olunur, təchizatımız da var.

Tibb xidməti kapitanı Elvin Məmmədov dedi ki, təxliyə baxımından onların peşəkarlaşmasının səbəbi daha çox müharibələrdə iştirak etmələridir. "Lakin bununla yanaşı, Vətən müharibəsində görülən işlər, aparılan əməliyyatlar onlar üçün çox maraqlı idi. Bu isə bizim təhsil sahəsində əldə etdiyimiz yeniliklərin nəticəsidir.

Tədbirdə nümayiş etdirdiyimiz təcrübədə həm NATO-nun, həm Sankt-Peterburqun, həm də Gülhanənin özünəxas üstünlükləri görünməkdə idi. Məsələn, illərdir belə təlim və kurslarda iştirak edən Tibb xidmətinin rəhbərliyi əldə etdiyi təcrübələrdən yararlanaraq inkişaf etmiş bir formada "Xəstəlik tarixi ilə bağlı blank" hazırlayıb. Bu blankların doldurulması daha rahatdır. Sualların cavablanması burada nəsə yazmaqla deyil, rənglərlə öz cavabını tapır. Belə ki, hər bir rəngin öz mənası var və bu rəngləri işarələməklə xəstənin vəziyyəti qeyd olunur. Çünki döyüşlərdə, güllələrin altında narahat bir vəziyyətdə insanın xətti tam anlaşıqlı olmaya bilər. Amma rənglərlə rahatdır. Bu rənglərin mənaları haqqında bütün həkimlərimiz məlumatlıdır. Döyüş meydanından başlanan bu proses toplama məntəqələrindəki həkimlər üçün daha tez başa düşülən olur. Onlar da bunu çox bəyəndilər. Özlərində də istifadə edəcəklərini bildirdilər".

Müharibələrdə böyük qələbələrin əsasında duran ən başlıca amil xalq-dövlət-ordu birliyinin sarsılmaz vəhdətinin təmin olunmasıdır. Vətən müharibəsi dünya azərbaycanlılarının birliyinin sarsılmazlığını, xalqımızın Vətən torpaqlarının azad edilməsi naminə "Dəmir yumruq" kimi birləşdiyini nümayiş etdirdi. Həkimlərimiz səfər müddətində Azərbaycana qarşı xoş münasibətin və sevginin şahidi də olublar. Hərbi formada fəxrlə daşıdığımız üçrəngli bayrağımızı tanıyanlar da çox olub.

- Müqəddəs bayrağımıza baxıb "Azərbaycan" deyənlərin də şahidi olduq, - tibb xidməti kapitanı dedi. - Ordumuza məxsus olan zabit mundirini də çox bəyəndilər. Heyranlıqla bizə baxırdılar. Hərbçilərə qarşı böyük rəğbət vardı. Küçədə belə saxlayıb haradan, nə üçün gəlməyimizlə maraqlanırdılar. "Xidmətinizə görə minnətdarıq" deyə təşəkkür edirdilər.

Oklahoma Milli Qvardiyasının tədris mərkəzində tibbi yardım səviyyələrinin koordinasiya olunması və rabitə vasitələri ilə vəziyyətin dəyərləndirilərək məruzə olunma üsullarından danışan tibb xidməti baş leytenantı Zaur Əhmədzadə sanitar təxliyə avtomobillərinin quruluşundan, sanitar aviasiya vasitəsi olan M998 tipli helikopterin təxliyə prinsipindən, sanitar nəqliyyat vasitəsilə yaralı və ya xəsarət almış hərbi qulluqçuya tibbi yardım göstərilməsi, bir ərazidən digərinə təxliyə olunması və sanitar helikopter yerə eniş etmədən borta qaldırılması məşqini icra etdiklərini bildirdi.

- Vətən müharibəsində bizdə xəstələr üçün tam komplektləşdirilmiş vəziyyətdə helikopterlər fəaliyyətdə idi. Bu helikopterlər havada olduğu müddətdə xəstəyə bütün lazımi tibbi müdaxilələr mümkün idi. Biz orada olarkən sanitar helikopterinin yerə eniş etmədən yaralının borta qaldırılması üçün quraşdırılmış xüsusi 85 metr uzunluqda tros-dartma mexanizminə malik olması diqqətimizi çəkdi. Bu, bizim üçün böyük təcrübə oldu.

Tibb xidmətinin zabitləri dedilər ki, burada gördüklərimizin tək döyüş meydanında deyil, eləcə də stasionar və mobil hospitallarda ixtisaslı həkimlərin (cərrah, anestezioloq və reanimatoloq, travmatoloq və terpevtik ixtisaslar) təcrübə mübadiləsində yeni müasir əməliyyat və müalicə üsullarının, o cümlədən müasir tibbi avadanlıqların öyrənilməsində mühüm rolu olacaqdır. Səfər müddətində görüb öyrəndiklərimiz bizim üçün yeni təcrübələr qazanmağımıza səbəb oldu.

Böyük Qələbənin nəticəsidir ki, Amerikanın Oklahoma ştatında da bizimlə maraqlanırlar. Bu gün bütün inkişaf etmiş ölkələrin diqqəti rəşadətli Azərbaycan Ordusunun üzərindədir. İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Biz torpaqlarını varlığıyla qoruyan, döyüşkən xalq kimi özümüzü dünyada təsdiq etmişik. Xalqımız bu müharibə ilə bağlı əbədi qürur hissi keçirəcək.

**Baş leytenant**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

# Mühəndis-istehkam bölmələri ilə taktiki-xüsusi məşqlər keçirilir



Azərbaycan Ordusunun və Türkiyə Silahlı Qüvvələrinin Mühəndis Qoşunlarının hərbi qulluqçularının iştirakı ilə silahlanmada olan müasir texnika və avadanlıqların tətbiqi ilə mühəndis təminatı üzrə taktiki-xüsusi məşqlər keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, keçirilən dərslərin mövzusuna əsasən, istehkamçılar minaaxtaranların taktiki-texniki xüsusiyyətlərini öyrənir, onlardan istifadə qaydaları barədə nəzəri biliklərini artırırlar.

Xüsusi hazırlanmış mühəndis şəhərciyində istehkamçılar ərazinin kəşfi, minaaxtaranlar vasitəsilə minaların və partlamamış döyüş sursatlarının aşkar edilməsi və zərərsizləşdirilməsi mövzusunda fəaliyyətləri praktiki olaraq icra ediblər.

# "Ən yaxşı qumbaraatan heyəti" adı uğrunda yarışlar keçirilib



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Quru Qoşunlarının 2022-ci tədris ilinin hazırlıq planına əsasən, "Ən yaxşı SPQ-9 və AQS-17 (AQS-30) heyəti" adı uğrunda yarışlar keçirilib.

Atışdan əvvəl hərbi qulluqçuların nəzəri bilikləri yoxlanılıb, fiziki hazırlıq, taktiki hazırlıq və mühəndis hazırlığı üzrə normativlər qəbul olunub.

6 mərhələ üzrə keçirilən yarışda heyətlər tank əleyhinə dəzgahlı qumbaraatanlardan şərti düşmənin müxtəlif hədəflərini məhvetmə, həmçinin dəzgahlı avtomatik qumbaraatanlardan yarımdüzünə tuşlama ilə yerindən atəş üzrə təlim atış çalışmalarında öz bacarıqlarını nümayiş etdiriblər.

Yarışın keçirilməsində əsas məqsəd şəxsi heyətin hazırlıq səviyyəsinin yoxlanılması və praktiki vərdişlərinin təkmilləşdirilməsi, eləcə də döyüş hazırlığı üzrə fərqlənən hərbi qulluqçuların mükafatlandırılmasıdır.

*Əsgər dostluğu*

# "Yaxşı dost ən böyük sərvətdir"



İnsan bütün yaş dövrlərində dosta, sirdaşa ehtiyac duyur. Təsadüfi deyil ki, yaxşı dost qazananlar həyatda qiyməti ölçülməz bir nemətə sahib olduqlarını deyərlər. Bu gün ordumuzda əsgərlər arasında qarşılıqlı hörmət, qardaşlıq bağları güclü olduğu kimi, möhkəm dostluq münasibətləri də mövcuddur.

"N" hərbi hissəsində xidmət edən əsgərlər Anar Qurbanov və Nəvai Nəsirov xidmət dövründə dostluğun təməlini atanlardandırlar. "Vəfalı olmaq dostluğun ən əsas şərtlərindəndir", - deyə əsgər Anar Qurbanov söhbətə başladı: "Atam hər zaman mənə dünyada ən böyük sərvət yaxşı dosta sahib olmaqdır, deyirdi. Əvvəllər onun dediyi fikrin mahiyyətini dərk etməsəm də, böyüdükcə nə qədər haqlı olduğunu anladım. Fikrimcə hansı insanın qəlbində məhəbbət, səmimiyyət yuva salıbsa, o insanın dostu çox olar. Qəlbində nifrət, kin olanın dostu olmaz.

Bu gün dostlarımla aramızda qarşılıqlı səmimiyyət və hörmət hökm sürür. Ən maraqlı anlarım dostlarımla keçirdiyim zamanlardır. Həmişə dostlarımı və aramızda olan dostluğu qorumağa çalışıram. Hərbi xidmətdə özümə Nəvai kimi mərd, qorxmaz, Vətənini canından çox sevən dost qazandım. O, ilk gündən hərbi xidmətə alışmağımda mənə köməklik göstərib. Burada demək olar ki, vaxtımızın çoxunu birgə keçiririk. Asudə vaxtlarımızda məşğələlərdə öyrəndiklərimizi təkrarlayır, müxtəlif məsələləri müzakirə edirik. Çox vaxt dostumla döyüş növbətçiliyini birgə aparırıq. Bu, məni daha da ruhlandırır".

Əsgər Nəvai Nəsirov da Anar kimi dost qazandığından sevincli olduğunu bildirdi: "Dostluq insan üçün ən müqəddəs hisslərdən biridir. Dost dostla heç bir zaman istehza etməməlidir, təvazökar olmalı, təkəbbürlülükdən uzaq olmalıdır. Dost dostun sirrini ölənə kimi qoruyub saxlamalıdır. Əhdinə sadiq olmalı, xilaf çıxmamalıdır. Anar sədaqətli, yaxşı dostlardandır. Asudə vaxtlarımızda onunla söhbətləşir, gələcək planlarımızdan danışırıq. Hərbi xidməti başa vurduqdan sonra da dostluğumuzu davam etdirəcək, bu gün xəyalını qurduğumuz planlarımızı gerçəkləşdirməyə çalışacağıq".

Hərbi hissələrimizdə belə dostlarla tanış olduğum üçün sevincliyəm. İnanıram ki, mərd əsgərlərimizin dostluğu da əbədi olacaq.

**Leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**

# Türkiyədə müalicəsini tamamlayan qazi Vətənə dönüb

"YAŞAT" Fondu tərəfindən Türkiyə Respublikasında ikinci müalicəsini bitirərək yenidən Vətənə dönən qazi Rüstəmli İlkin Elçin oğlu Füzulidə təmtəraqla qarşılanıb. Füzuli rayon Aşağı Yağlıvənd kənd sakini olan qazi İlkinin qarşılanma mərasimində şəhid ailələri, qazilər, Füzuli rayon İcra Hakimiyyətinin məsul əməkdaşları, rayon ictimaiyyəti, kənd orta məktəbin kollektivi, kənd sakinləri iştirak ediblər.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, kənd orta məktəbdə keçirilən tədbirdə çıxış edənlər Ali Baş Komandan İlham Əliyevin şəhid ailələrinə, qazilərə göstərdiyi diqqət və qayğıdan danışıblar. Qazi İlkin Rüstəmli də öz növbəsində ona göstərilən diqqət və qayğıya görə Ali Baş Komandan İlham Əliyevə xüsusi minnətdarlığını bildirərək, şəhidlərimizə rəhmət, qazilərimizə şəfa, əsgər və zabitlərimizə isə cansağlığı arzulayıb.

Qeyd edək ki, Vətən müharibəsi qazisi olan Rüstəmli İlkin Elçin oğlu 1999-cu il iyulun 22-də Füzuli rayonu Aşağı Yağlıvənd kəndində anadan olub. Hərbi xidmətini Xüsusi Təyinatlı Qüvvələr sırasında keçib. Bir çox kursu yüksək nailiyyətlərlə başa vuran İlkin hərbi xidmətini kiçik çavuş kimi davam etdirib. 44 günlük Vətən müharibəsində Kəlbəcər, Cəbrayıl, Xocavənd, Şuşa istiqamətində gedən döyüşlər zamanı şücaəti ilə seçilib. Oktyabrın 22-də gərgin döyüşlər zamanı yaralanan İlkin hospitala yerləşdirilib, daha sonra müalicə üçün "YAŞAT" Fondunun dəstəyi ilə qardaş Türkiyəyə göndərilib. Müalicəsini bitirən İlkin ötən gün Vətənə dönüb.

Qazi İlkin Rüstəmli döyüşlərdə göstərdiyi şücaətə görə "Rəşadət" ordeni, "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.

# Xəbərlər:
## hadisələr, faktlar

### Latviyada üç min hərbi qulluqçunun iştirak etdiyi beynəlxalq təlimlər başlayıb



Latviyada Şimali Atlantika Alyansının bir neçə ölkəsinin silahlı qüvvələrinin üç min hərbi qulluqçunun iştirakı ilə beynəlxalq "Namejs 2022" təlimləri başlayıb.

Latviya ordu komandanlığının məlumatına görə, hərbi təlimlər müdafiə zamanı milli və müttəfiq qüvvələrin qarşılıqlı fəaliyyətinin yoxlanılması məqsədi daşıyır.

Böyük Britaniya, Litva, Polşa, ABŞ, Çexiya və Estoniyanın hərbi birləşmələri "Namejs 2022" təlimlərində iştirak etmək üçün Latviyaya gəlib. Manevrlərdə, həmçinin Latviyada yerləşən və tərkibinə Albaniya, İtaliya, İslandiya, İspaniya, Kanada, Polşa, Slovakiya, Sloveniya, Monteneqro və Çexiyadan bölmələrin daxil olduğu NATO batalyonu da iştirak edəcək.

Müttəfiqlərin komandanlığı təlimlərə motoatıcı və desant bölmələri, artilleriya, aviasiya, həmçinin operativ planlaşdırma və madditexniki təminat bölmələrinin nümayəndələrini göndərib. Mayın 27-si başa çatacaq "Namejs 2022" təlimlərinin bir neçə mərhələdən ibarət olacağı bildirilir.

### Norveç Ukraynaya 100 ədəd "Mistral" zenit-raket kompleksi verib



Norveç Kiyevin silah tədarükü ilə bağlı xahişinə cavab olaraq Ukraynaya 100 ədəd "Mistral" zenit-raket kompleksi göndərib.

Bu barədə Norveçin müdafiə naziri Born Arild Qram deyib. Onun sözlərinə görə, raketlər Norveç ordusu tərəfindən istifadə edilmir, lakin Ukraynaya böyük fayda gətirə biləcək müasir və effektiv silahdır.

Bir müddət öncə Ukrayna Prezidenti Volodimir Zelenski ölkəsinə müxtəlif silahlar, əsasən də "Harpun" tipli gəmi əleyhinə raketlər və NASAMS tipli mobil zenit-raket komplekslərı göndərməsi barədə Osloya müraciət edib. Bundan əlavə, o, zirehli texnika və artilleriya sistemlərinin məhv edilməsi üçün vasitələrə də ehtiyac olduğunu deyib.

### Hindistan "BrahMos" qanadlı raketinin aviasiya versiyasını sınaqdan keçirib



Hindistan aprelin 19-da səsdən sürətli "BrahMos" qanadlı raketinin aviasiya versiyasını uğurla sınaqdan keçirib.

Bu barədə Hindistan Müdafiə Nazirliyinin hökumət saytında dərc olunan məlumatda deyilir.

"Ölkənin şərq sahillərində Su-30MKİ qırıcı təyyarəsindən atılan səsdən sürətli "BrahMos" qanadlı raketinin aviasiya versiyası Hərbi Dəniz Qüvvələrinin istismarı başa çatmış gəmisini yüksək dəqiqliklə məhv edib", - deyə məlumatda bildirilir.

2016-cı ildə Hindistan "BrahMos" qanadlı raketinin aviasiya versiyasını hazırlamaq üçün çalışmalara başlayıb. Ölkənin Müdafiə Nazirliyi 40-dan çox Su-30MKİ döyüş təyyarəsini həmin raketlərlə təchiz etməyi planlaşdırır.

Rusiyanın "Maşinostroeniya" və Hindistanın müdafiə tədqiqatları təşkilatı tərəfindən hazırlanan səsdən sürətli "BrahMos" qanadlı raketləri "Aerospace" müştərək müəssisəsi tərəfindən istehsal olunur. Uzaq məsafədən quru və dəniz hədəflərini dəqiq vurmaq üçün nəzərdə tutulan raketin ilk sınaqları 2001-ci ildə baş tutub. Hazırda onun müxtəlif versiyaları Hindistanın Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri və Quru Qoşunlarının silahlanmasına qəbul edilib.

**AZƏRTAC-ın materialları əsasında**

## XİN Türkiyədə törədilən terror aktını qınayıb

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi (XİN) Türkiyənin Bursa şəhərində törədilən terror aktını qınayıb.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan XİN-in tviter hesabında paylaşım edilib.

"Qardaş Türkiyənin Bursa vilayətində törədilən terror hücumu nəticəsində həyatını itirən məmurun ailəsinə və yaxınlarına hüznlə başsağlığı bildirir, yaralılara Allahdan şəfa diləyirik. Azərbaycan terrorun bütün forma və təzahürlərini qətiyyətlə qınayır", - deyə paylaşımda vurğulanıb.

## Dövlət vəsaiti hesabına daimi mənzillə təmin olunmaq istəyən ehtiyatda olan (zabit, gizir, "miçman" və müddətdən artıq həqiqi hərbi xidmət) hərbi qulluqçuların nəzərinə

"Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2011-ci il tarixli 569 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 15 noyabr 2021-ci il tarixli 1476 nömrəli Fərmanının icrası ilə əlaqədar olaraq **xidmət müddətində məhkumluğu aşkar edilmiş ehtiyatda olan (zabit, gizir, "miçman" və müddətdən artıq həqiqi hərbi xidmət) hərbi qulluqçuların** dövlət vəsaiti hesabına daimi mənzillə təmin olunmaları üçün Müdafiə Nazirliyinin nəzdində fəaliyyət göstərən Komissiyaya aşağıdakı sənədlər təqdim edilməlidir:

- Dövlət vəsaiti hesabına daimi mənzillə təmin olunma barədə ərizə;
- Hərbi qulluqçu barədə çıxarılmış məhkəmə hökmü (əsli və ya notarial təsdiqi);
- Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 83-cü maddəsinə əsasən məhkumluğun ödənilməsi və ya üzərindən götürülməsi barədə arayış (əsli və ya notarial təsdiqi).

Ehtiyatda olan (zabit, gizir, "miçman" və müddətdən artıq həqiqi hərbi xidmət) hərbi qulluqçuların dövlət vəsaiti hesabına daimi mənzillə təmin olunma növbəsinə alınması üçün yuxarıda qeyd olunan Fərmanın 3.1-ci bəndində göstərilən tələblərə və sənədlərin təqdim edilmə ardıcıllığına uyğun olaraq həyata keçiriləcək.

Daxil olan müraciətlər komissiya tərəfindən araşdırıldıqdan sonra Azərbaycan Ordusunda 20 təqvim ili və daha çox xidmət etmiş ehtiyatda olan (zabit, gizir, "miçman" və müddətdən artıq həqiqi hərbi xidmət) hərbi qulluqçuların sənədləri dövlət vəsaiti hesabına daimi mənzillə təmin olunma növbəsinə alınması üçün Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə göndəriləcək.

**Sənədlərin təqdim olunacağı ünvan**: Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin Mənzil-İstismar İdarəsi (Süleyman Dadaşov küçəsi 2).

**Telefon**: (012) 539-23-55

## İdman

### Boksçumuz Avropa birinciliyinin bürünc medalını qazanıb



Bolqarıstanın paytaxtı Sofiyada gənc boksçular arasında keçirilən Avropa birinciliyində yarımfinal döyüşləri davam edir.

Yığmamızın heyətində finala vəsiqə üçün Kənan Babayevin (48 kq) ardınca Amin Məmmədzadə (51 kq) də rinqə çıxıb.

Səkkizdəbir finalda irlandiyalı, 14 finalda ermənistanlı rəqibinə qalib gələn Azərbaycan çempionu üçüncü qarşılaşmasında Gürcüstan idmançısı ilə üz-üzə gəlib. Görüş rəqibin qələbəsi ilə yekunlaşıb.

Nəticədə A.Məmmədzadə Avropa birinciliyini bürünc medalla başa vurub.

Qeyd edək ki, yarışda final görüşləri aprelin 21-də baş tutacaq. Kənan Babayev çempionluq döyüşündə polşalı Nikolas Marsel Pavliklə qarşılaşacaq.

### Məhəmməd Salah İngiltərə Premyer Liqasında yeni rekorda imza atıb



"Liverpul"un futbolçusu Məhəmməd Salah İngiltərə Premyer Liqasında yeni rekorda imza atıb.

Misirli hücumçu buna turnirin 30-cu turunun "Mançester Yunayted"lə təxirə salınmış oyununda (4:0) nail olub. Salah həmin qarşılaşmada dubl edib. Nəticədə oyunçu bu mövsüm "Mançester Yunayted"ə vurduğu qolların sayını 5-ə yüksəldib. Beləliklə, Salah bir mövsümdə "Mançester Yunayted"ə 5 qol vuran ilk futbolçu adını qazanıb.

Qeyd edək ki, Salah 2017-ci ildən "Liverpul"un formasını geyinir. Onun klubla müqaviləsi 2023-cü ilədəkdir. Forvard bu mövsüm 30 matçda 22 qol vurub və 12 qolun ötürməsini edib.

### Tələbələr arasında Aprel şəhidlərinin xatirəsinə həsr olunmuş mini futbol turniri keçirilib



"Azfar" MMC-nin stadionunda Nəsimi rayon Gənclər və İdman İdarəsi və Azərbaycan Universiteti Tələbə Gənclər Təşkilatının nəzdində fəaliyyət göstərən idman klubunun birgə təşkilatçılığı ilə tələbələr arasında Aprel şəhidlərinin xatirəsinə həsr olunmuş mini futbol turniri keçirilib.

Turnirin keçirilməsində əsas məqsəd gənclərin asudə vaxtlarının düzgün və səmərəli təşkili, Aprel döyüşlərində həlak olmuş şəhidlərimizin əziz xatirəsini yad etmək, gənclərə vətənpərvərlik hisslərinin aşılanması və sağlam həyat tərzinin təbliğ olunmasından ibarətdir.

Turnirin nəticələrinə görə, "The tigers" komandası birinci olub. "Fury" komandası yarışı ikinci, "Newcastle" isə üçüncü pillədə başa vurub.

Mükafatçılar kubok, diplom və medallarla təltif olunublar.

**AZƏRTAC-ın materialları əsasında**

---

*Tarix yazan oğullar*

## Yenilməz qüdrətdi Vətənə sevgi!



***Şahin Səfərov özünü dərk edəndən anlamışdı ki, Vətən torpaqlarının 20 faizini ermənilər işğal ediblər. Bir milyondan artıq soydaşımız dədə-baba yurdundan didərgin düşüb. 30 ildir ki, Vətən də, vətəndaş da dardadı. Zaman-zaman atəşkəsi pozan erməni silahlı birləşmələrinin qarşısını ordumuzun bölmələri qətiyyətlə alırdılar. Ordumuz düşmənin yeni ərazilərimizi işğal etməsinə imkan vermirdi. Hər dəfə təmas xəttində atəşkəs pozulanda Şahində düşmənə qarşı qəzəb, nifrət hissi daha da artırdı. İstəyi o idi ki, işğal olunmuş torpaqlarımızın azad edilməsində bir Vətən oğlu kimi fəal iştirak etsin.***

27 sentyabr 2020-ci il... Həmin gün səhər tezdən düşmən yenə öz şər maşınını işə salaraq yeni əraziləri işğal etmək məqsədilə hücuma keçdi. Döyüş mövqelərində hər zaman ayıq-sayıq dayanan əsgərlərimiz bu dəfə də erməni silahlı dəstələrinin hücumunun qarşısını qətiyyətlə aldılar. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin əmri ilə ordumuz əks-hücum əməliyyatlarına başladı. Şahinin gözlədiyi gün yetişmişdi. Xalqımızın minlərlə qeyrətli, mərd, igid oğlu Vətən torpaqlarını erməni işğalından azad etmək məqsədilə yaşadıqları rayonun Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə üz tutdu. Həmin gün Şahin Səfərov da onların sırasında idi.

COVID-19 pandemiyasının tüğyan etdiyi bir dönəmdə ordu sıralarına səfərbər olunan gənclər həkim müayinəsindən sonra qəbul edirdilər. Şahin Səfərov da tibbi yoxlamadan sonra döyüş bölgəsinə yollanır. İlk gəldiyi yer ön xətdə yerləşən "N" hərbi hissəsi olur.

Şahin Şəmsəddin oğlu Səfərov 2007-2009-cu illərdə Müdafiə Nazirliyinin artilleriya hərbi hissələrindən birində müddətli həqiqi hərbi xidmətdə olub. O, artilleriya bölməsində rabitə manqa komandiri olsa da, top qurğularından atış qaydalarını da kifayət qədər yaxşı öyrənmişdi. Hərbi hissədə vaxtilə onun komandiri olmuş polkovnik-leytenant Eldar Məmmədovla qarşılaşır. Komandiri ilə həmsöhbət olur. Şirin xatirələri yada salırlar. Şahin özüyeriyən minaatan heyətinə təyin edilir. O, Füzuli istiqamətində gedən döyüşlərə qatılır. Xocavənd azad edildən sonra isə Şahingil Şuşa uğrunda döyüşlərə başlayır. Onun xidmət keçdiyi minaatan heyəti qarşıya qoyulan döyüş tapşırığını yüksək səviyyədə yerinə yetirir.

Atdıqları hər bir mərmi hədəfə dəyir. Düşmən cəsur döyüşçülərin artilleriya atəşindən yayına bilməyib, itki verərək geri çəkilir. Şahin Şuşa ətrafında gedən döyüşü belə xatırlayır:

- Noyabrın 8-i idi. Bizim tapşırığımız xüsusi təyinatlı qüvvələrin irəliləməsinə artilleriya dəstəyi vermək idi. Bölmələrin bəziləri şəhərə daxil olmuşdular. Şəhərin əsas yüksəkliyi hələ də düşmən nəzarətində idi. Döyüş tapşırığımız da həmin yüksəkliyi minaatanla vurmaq və oradakı düşmənin atəş vasitələrini sıradan çıxartmaq idi. Biz həmin yüksəkliyi minaatanlarla vurduq. Lakin düşmən geri çəkilmək istəmirdi. Son anda ermənilər atəş açdığımız mövqeyə top mərmiləri atdılar. Mərmilərdən biri yaxınlığıma düşdü. Ağır yaralandım, Əmrah Əliyev isə şəhid oldu.

İkinci Qarabağ müharibəsində göstərdiyi igidliklərə görə Şahin Səfərov Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.

İki övlad atası olan Şahin Səfərov ordumuzun qələbə ilə nəticələnən döyüşlərində iştirak etdiyi üçün özünü çox xoşbəxt hiss edir. Aldığı çoxsaylı qəlpə yaraları sağlamlığını əlindən alsa da, "Vətən sağ olsun!" deyir.

Zaqatala rayonunun Gözbarax kəndində sadə, zəhmətkeş ailədə doğulub boya-başa çatan Şahin Səfərov bu günlərdə növbəti dəfə əməliyyat olunub. Əməliyyatdan sonra evə qayıdıb. Kənddə doğma ata ocağında ağsaqqallar, ziyalılar, din adamları igid döyüşçünün ziyarətinə gəlmişdilər.

Vətən müharibəsi qazisi Şahin Səfərov da digər qazilər kimi deyir ki, yenilməz qüdrətdi Vətənə sevgi!..

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

---

Gizir Balakişiyev Əfşan Elman oğluna məxsus SQ № 0025414 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini**
kapitan
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Mahmud MÖHBALIYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 518
Nüsxə 4673